





# Soyuq münasibətlərə isti nəfəs



*Diplomatiya müstəvisində bəzi sənədlər var ki, onların məzmunundan çox sətiraltı mənası siyasi analitiklər və dövlətlər üçün ciddi təhlil mövzusuna çevrilir. ABŞ Prezidenti Donald Trampın 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı məktub da bu qəbildəndir. Əgər müasir beynəlxalq münasibətlər sistemini güclər balansı əsasında formalaşan canlı mexanizm kimi qəbul etsək, bu cür sənədlər həmin sistemin incə detallarını hərəkətə gətirən mühüm elementlərdir. Trampın məktubu ABŞ-Azərbaycan münasibətlərində nəzakətli diplomatik jest olmaqdan daha çox Vaşinqtonun Cənubi Qafqaz regionuna dair yenilənmiş baxış bucağını təcəssüm etdirən siyasi mətn kimi qiymətləndirilə bilər. Bu məktub Vaşinqtonun Bakı ilə münasibətlərinə verdiyi dəyərin, bölgəyə baxışının və gələcək əməkdaşlıq xəritəsinin sözlərlə cızılmış eskizidir. Hər sətirində gələcəyin siqnalları oxunur: enerji təhlükəsizliyi, regional sabitlik, iqtisadi tərəfdaşlıq və Cənubi Qafqazda yeni çağırışlara birgə cavab axtarışı.*

Tramp məktubunda terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, Ermənistanla sülhə nail olmaq istiqamətində Azərbaycanla ABŞ-ın əlaqələrini müsbət qiymətləndirdiyini bildirib. İkitərəfli əməkdaşlığın gələcəyinə dair də ümidvar olduğunu vurğulayıb: "30 ildən artıq diplomatik münasibətlərimiz müddətində əlaqələrimiz əhəmiyyətli dərəcədə inkişaf edib. Biz ümidvarıq ki, ikitərəfli prioritetlərimiz, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığımız, iqtisadi münasibətlərimiz və enerji inkişafı üzrə tərəfdaşlığımız bundan sonra da davam edəcək".

Donald Trampın ikinci dəfə Ağ Evə dönüşü ilə ABŞ-ın Cənubi Qafqaz siyasətində ton dəyişməsi artıq hiss olunur. Tramp fərdi liderlik üslubu və realpolitika yanaşması ilə tanınır. Onun üçün enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və antiterror məsələləri dəyərlərdən daha çox prioritet təşkil edir. Bu isə Azərbaycan kimi enerji və təhlükəsizlik baxımından əhəmiyyətli ölkə ilə əməkdaşlığı təbii şəkildə dərinləşdirir. Tramp Administrasiyası 2017-2021-ci illərdə Azərbaycanla konstruktiv dialoq üçün əlverişli atmosfer yaratmışdı. Xüsusilə Cənub Qaz Dəhlizi layihəsində ABŞ-ın verdiyi dəstək Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı statusunu gücləndirmişdi. Trampın qayıdışı ilə həmin enerji gündəminin yenidən aktivləşdirilməsi və Vaşinqtonun regiondakı mövqeyini gücləndirməyə çalışması müşahidə olunur. Hazırkı məktub da bu niyyətin diplomatik manifestasiyası kimi görünür. Məktubda vurğulanan mövzular, yəni terrorizmə qarşı mübarizə, enerji təhlükəsizliyi, iqtisadi tərəfdaşlıq Trampın siyasi leksikonuna xas ifadə formalarıdır. Bu isə məktubun təkcə forma yox, məhiyyət baxımından da onun idarəçilik fəlsəfəsinə uyğun olduğunu göstərir.

Co Bayden Administrasiyası dövründə ABŞ-Azərbaycan münasibətləri rəsmi səviyyədə sabit qalsa da, siyasi ritorikada və fəaliyyət tonunda müşahidə olunan soyuqluq inkar edilə bilməz. Demokratların idarəsində olan Vaşinqton insan haqları, söz azadlığı və mülki cəmiyyət mövzularını ön plana çəkərək Bakı ilə təmaslarında daha çox tənqidi və şərti yanaşma sərgiləyirdi. Bu, təkcə Azərbaycan üçün yox, ümumilikdə Avrasiya məkanındakı bir sıra tərəfdaş ölkələr üçün də səciyyəvi idi. Baydenin komandasının regional siyasətə yanaşması daha çox institusional və prinsipial çərçivələr üzərində qurulmuşdu. Praktik maraqların yerini dəyərlərə əsaslanan yanaşma aldığı üçün Vaşinqton-Bakı xəttində yaranan fərqlər bəzən ikitərəfli əməkdaşlığın effektivliyinə təsir göstərirdi. Məsələn, 44 günlük müharibədən sonra ABŞ-ın regionda balanslı vasitəçi rolunu tam şəkildə oynaya bilməməsi Azərbaycan ictimaiyyətində də, siyasi elitada da Vaşinqtonun passiv obrazını ortaya qoydu. Bayden Administrasiyası, xüsusilə Fransa və Ermənistanla paralel çalışan bəzi strukturlar vasitəsilə Bakı ilə strateji yaxınlaşmadan daha çox məsafəli mövqeni qorudular. 2025-ci ilin yanvarında Davos İqtisadi Forumunda Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur arasında baş tutan dialoqda da bu məsələ müzakirə olunmuşdu. Dövlət başçısı açıq və birmənalı şəkildə qeyd etdi ki, Bayden-Blinken administrasiyası dövründə Vaşinqtonun Bakıya qarşı nümayiş etdirdiyi münasibət qərəzli olub və bu da iki ölkə arasında uzun illər ərzində formalaşmış strateji əməkdaşlığı böhrana sürükləyib. Bu bəyanat dövlət başçısının açıq tribunada dünya ictimaiyyətinə yönəltdiyi tənqidi mesaj idi. Ölkə rəhbərinin vurğuladığı konkret məqamlardan biri də "Azadlığı Müdafiə Aktına" əlavə edilmiş məşhur 907-ci düzəlişin yenidən tətbiq edilməsi idi. Bu düzəliş 1992-ci ildə qəbul edilsə də, sonradan ABŞ prezidentləri tərəfindən mütəmadi olaraq dayandırılmışdı. Bayden administrasiyasının bu düzəlişi faktiki bərpa etməsi rəsmi Bakının gözündə birbaşa siyasi nankorluq və ermənipərəst mövqenin hüquqi çalarlara bürünmüş təzahürü kimi qiymətləndirildi. Bu kontekstdə Tramp Administrasiyasının mövqeyi isə kəskin kontrast təşkil edir. Onun prezidentliyi dövründə 907-ci düzəlişin tətbiqinə moratoriumun davam etməsi və Azərbaycanla strateji əməkdaşlığın prioritet kimi qorunması Vaşinqtonun Bakı ilə münasibətlərə praqmatik və balanslı yanaşmasının sübutu kimi qəbul oluna bilər. Trampın dövründə göndərilən təbrik məktublarında da bu fərqin açıq-aşkar izlərini görmək mümkündür. Təbriklərdə insan haqları və demokratiya kimi mövzular ikincil plana keçirilib, əsas diqqət əməkdaşlıq, enerji təhlükəsizliyi və regional sabitlik kimi konkret sahələrə yönəlib. Bu, Azərbaycanın daxili siyasi xəttinə qarışmamaq prinsipinin bir formasıdır və Vaşinqtonla Bakının etimad mühitini qorumağa xidmət edir. Əslində, Trampın bu məktub sətiraltı şəkildə Bayden Administrasiyasının sərgilədiyi sərt və tənqidedici ritorikanın ikitərəfli münasibətləri zədələdiyini etiraf edən, daha praqmatik və əməkdaşlığa çağıran tənqid hesab oluna bilər. Bu da səbəbsiz deyil. Tramp dövründə ABŞ qlobalist ideologiyaların deyil, məhz öz dövlətinin maraqlarının müdafiəsinə önəm verilir. Bayden-Blinken administrasiyası isə qloballıq kursunu əsas götürərək Sorosun ideoloji təsirinə açıq şəkildə tabe oldu. Bu xətt çərçivəsində insan haqları, demokratiya kimi universal dəyərlər digər ölkələrin daxili işlərinə müdaxilə üçün vasitəyə çevrildi.



Bayden dönəmində ABŞ xarici siyasəti bir çox regionlarda iflasa uğradı. Əvvəllər Vaşinqton qlobal proseslərdə dominant oyunçu kimi çıxış edirdisə, bu illər ərzində Yaxın Şərq, Ukrayna, Latın Amerikası və Cənubi Qafqazda mövqelərini sürətlə itirdi. ABŞ artıq təsiredici güc yox, hadisələrin passiv müşahidəçisi kimi görünməyə başladı. Eyni zamanda, bu illərdə medianın və informasiya resurslarının dövlətin təbliğat maşınına çevrilməsi, söz və fikir azadlığına qarşı basqılar ABŞ-ı "azadlıq carçısı" deyil, daxili senzuranın və siyasi manipulyasiyanın mərkəzinə çevirdi. Məhz bu mənzərədə, Azərbaycan-ABŞ münasibətləri də ən aşağı nöqtələrdən birinə çatdı. Halbuki, iki ölkə uzun illər ərzində enerji təhlükəsizliyi, beynəlxalq terrorizmlə mübarizə və regional sabitlik sahəsində vacib əməkdaşlıq qurmuşdu. Tramp dövründə bu tərəfdaşlıq strateji xarakter daşıyırdı. Lakin Bayden administrasiyası ilə birlikdə Azərbaycan qərəzli yanaşmaların, böhtan kampaniyalarının hədəfinə çevrildi. Amma bu yanaşma ilk növbədə Vaşinqtonun öz maraqlarına zərbə vurdu. ABŞ həm enerji, həm təhlükəsizlik, həm də diplomatik təsir imkanlarını itirdi. Azərbaycan isə bu təzyiqlərə baxmayaraq regional güc olaraq öz suveren inkişaf yolunu qorudu.

Hazırda müşahidə olunan Tramp administrasiyasına bağlı çevrələrin yenidən diplomatik səhnəyə çıxması və Bakıya isti mesajlar göndərməsi isə münasibətlərin növbəti mərhələyə keçidinə işarədir. Müstəqillik Günü münasibətilə göndərilən təbrik də bu kontekstdə dəyərləndirilməlidir. Həmin mesajın arxasında həm də Trampın yaxın müttəfiqlərindən biri - senator Stiv Deynsin Azərbaycana səfəri dayanır. Bu addım təkcə ABŞ Senatındakı respublikaçı çevrələrin Azərbaycana münasibətini göstərmir, eyni zamanda gələcək administrasiyanın konturlarını da önə çıxarır. Vaşinqtonun, xüsusilə Respublikaçılar Partiyasının Azərbaycanı mühüm tərəfdaş kimi görməsi təsadüfi deyil. Bu mövqe həm enerji təhlükəsizliyində, həm də geosiyasi balansda Bakının strateji rolunun etirafıdır. Vaşinqtonun Cənubi Qafqaz siyasətindəki passivlik dönəmi geridə qalır. ABŞ enerji təhlükəsizliyi və regional sabitlik məsələlərində Azərbaycanla daha sıx tərəfdaşlıq qurmağa meyilli olduğunu bəyan edir. Bu isə həm ABŞ-ın itirilmiş təsir gücünü bərpa etməsi, həm də Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

Görünən odur ki, yeni bir diplomatik fəsil başlayır. Trampın imzası ilə başlayan bu fəslin adı "praqmatizm", altbaşlığı isə "hörmətə əsaslanan tərəfdaşlıq" ola bilər. Çünki siyasət bir az da poeziyadır. Hər kəlmə bir vəd, hər nöqtə yol ayrıcı, hər imza isə dönüş nöqtəsidir.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**